**Liman vasitələrinin mühafizəyə məsul**

1. Mühafizə haqqında deklarasiyanı liman tərəfindən kim imzalamalıdır?
Düzgün cavab: Limanın mühafizəyə məsul şəxsi və ya limanda mühafizəyə cavabdeh olan təşkilatın nümayəndəsi

2. Mühafizə üzrə tədbirlər görmək üçün yaxınlaşma farvateri liman vasitəsinin tərkibinə daxil edilə bilərmi?
Düzgün cavab: Bəli

3. Gəmilərin və liman vasitələrinin mühafizəsi üzrə Beynəlxalq Məcəllə neçənci ildə qüvvəyə minib?
Düzgün cavab: 01.07.2004

4. Dənizdə mühafizə səviyyəsinin artırılması üzrə xüsusi tədbirlər fəsli aşağıda göstərilənlərdən hansıdır?
Düzgün cavab: XI-2 Fəsli

5. GLVM BM-nin yaranma səbəbi hansı hadisədir?
Düzgün cavab: 11.09.2001-ci il ABŞ-da törədilmiş terror aktı

6. Xarici dövlətin hökuməti onun limanlarına daxil olmaq niyyəti olan gəmilərdən girişə icazə almaq şərti kimi gəminin limanlara son neçə girişi haqqında məlumatları tələb edə bilər?
Düzgün cavab: Liman vasitələrinə son 10 giriş

7. Limanın mühafizəsinin qiymətləndirilməsi hansı sənədlə
rəsmiləşdirilir?
Düzgün cavab: Limanın mühafizəsinin qiymətləndirilməsi haqqında hesabat ilə

8. Limanın mühafizə planı elektron şəklində saxlanılarkən onun
qorunması üçün hansı mühafizə tədbirləri görülməlidir?
Düzgün cavab: Məlumatın icazəsiz istifadəsinin, onun məhv edilməsinin və ya ona dəyişikliklərin edilməsinin qarşısının alınmasına yönəldilən prosedurları
həyata keçirmək

9. Gəminin mühafizə səviyyəsi limanın mühafizə səviyyəsindən
yüksək ola bilərmi?
Düzgün cavab: Yüksək ola bilər

10. Mühafizə səviyyəsi 1- adi səviyyə dedikdə nə nəzərdə tutulur?
Düzgün cavab: Riskin minimal səviyyəsidir

11. Limanda mühafizə üzrə məşqlər ən azı neçə müddətdən bir
keçirilməlidir?
Düzgün cavab: 3 ayda azı 1 dəfə

12. Limanda mühafizə üzrə təlimlər ən azı neçə müddətdən bir
keçirilməlidir?
Düzgün cavab: 12 ayda azı bir dəfə

13. Limana zəng vurub təhdid edən şəxslə telefonda necə danışmaq
tövsiyyə olunur?
Düzgün cavab: Zəng vuran şəxslə söhbəti maksimum uzatmaq və təmkinli
danışmaq

14. Bomba təhdidini qəbul etmiş liman əməkdaşının ilkin görəcəyi
tədbir:
Düzgün cavab: Zəngin vaxtını dərhal qeyd etməlidir

15. Mühafizə səviyyəsi 3 dedikdə hansı səviyyə nəzərdə tutulur?
Düzgün cavab: Ən yüksək səviyyə
16. Limanda əlavə mühafizə tədbirlərinin görülməsi hansı mühafizə
səviyyəsinə aiddir?
Düzgün cavab: Yüksəldilmiş səviyyəyə

17. Limanda xüsusi mühafizə tədbirlərinin görülməsi hansı mühafizə
səviyyəsinə aiddir?
Düzgün cavab: Müstəsna səviyyəyə

18. Müşayiət olunmayan baqaj dedikdə nə nəzərdə tutulur?
Düzgün cavab: Yoxlama və ya baxış keçirilən yerdə müvafiq sərnişin və ya heyət
üzvü ilə birgə olmur

19. Limanda mühafizənin və təhlükəsizliyin təmini üzrə tədbirlərin
tətbiqini özündə qeyd edən sənəd necə adlanır?
Düzgün cavab: Liman vasitələrinin mühafizə planı

20. Hansı əşyalar stasionar metal detektorla müəyyən edilir?
Düzgün cavab: Soyuq silahlar

21. Liman dövləti GLVM BM-nin tələblərinə uyğun olmayan gəmiyə
hansı xüsusi tədbirləri tətbiq edə bilər?
Düzgün cavab: Gəmiyə limana daxil olma icazəsi verilməyə bilər

22. Mühafizə üzrə iki təlim arasındakı zaman müddəti hansı dövrü aşmamalıdır?
Düzgün cavab: 18 ayı

23. Gəmilərin və liman vasitələrinin mühafizəsi üzrə beynəlxalq məcəllə hansı gəmilərə şamil edilir?
Düzgün cavab: Registr tutumu 500 r/t və yuxarı, Beynəlxalq reyslər həyata keçirən yüksək sürətli yük gəmiləri daxil olmaqla yük gəmilərinə

24. Məhdudlaşdırılmış giriş sahələri haqqında limanın hansı sənədində geniş şərh olunur?
Düzgün cavab: Limanın mühafizə planında

25. Aşağıda göstərilənlərdən hansılar şübhəli şəxslər kateqoriyasına aiddir?
Düzgün cavab: Ünsiyyətdən yayınan şəxslər

26. Aşağıda göstərilənlərdən hansılar şübhəli şəxslər kateqoriyasına aiddir?
Düzgün cavab: Mövsüm üzrə geyinməmiş şəxslər

27. XI-2 Fəsli neçə Qaydadan ibarətdir?
Düzgün cavab: 13 Qayda

28. XI-2 Fəslinin III Qaydası nədən bəhs edir?
Düzgün cavab: Mühafizə səviyyələrinin tətbiqindən bəhs edir

29. Liman vasitəsinin mühafizəsi aşağıdakılardan hansını nəzərdə tutur?
Düzgün cavab: Yuxarıda qeyd olunanların hamısını

30. Liman vasitəsinin mühafizəyə məsul şəxsinin vəzifə borclarını göstərin:
Düzgün cavab: Liman vasitəsinin mühafizə planının qüvvəyə mindirilməsi və yerinə yetirilməsi